# Türk tarixi və mifoloji dünyagörüşündə atlar



**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

əvvəli ötən sayımızda

***Dastanın məzmunundan belə bir nəticə hasil olur ki, orada cərəyan edən hadisələrin bir hissəsi Tyan-Şan, yəni Tanrı dağı və Altay dağları coğrafiyasında baş verir. Çünki dastanda dəmirin insanlar tərəfindən kəşf edilməsindən və daha sonra onun emal edilərək müxtəlif təyinatlar üzrə istifadə edilməsindən söhbət gedir. Tarixdən bəllidir ki, ilk dəmir istehsalı və emalı məhz Tanrı dağları və Altay silsiləsində baş verib və dəmirçilik türklərin ata-baba peşəsi sayılır. Görünür, dəmir emalının Qafqaza gətirilib çıxarılması da balkar və qaraçayların Tanrı dağı ətəklərindən Qafqazlara qədər köç etmələri yaddaşı ilə bağlıdır. Dastanda çox qiymətli tarixi informasiyalar olmasına baxmayaraq, biz sadəcə atlarla bağlı məsələləri təhlil edəcəyik. Elə dəmir emalı məsələsi də atlarla bağlı olduğu üçün diqqətimizi çəkdi. Çünki dastanda iddia olunur ki, nalı ilk dəfə balkar və qaraçay türkləri icad ediblər.***

Beləliklə, Nart dastanında qeyd edilir ki, Tanrı yeri və göyü binə etdikdən sonra nartlar da Mengü (əbədiyaşar) dağının ətəklərində yaşamağa başladılar. Onların çoxlu atları, inəkləri, qoyunları vardı. Bununla belə, qəddar düşmənləri olan divlər də vardı. Nart xalqı yalnız yetişdirdiyi bahadırlar hesabına bu divlərdən qoruna bilirdi. Belə adlı-sanlı bahadırlardan biri də dəmirçi Debet idi. Debetin bir özəlliyi də o idi ki, o, hər şeyin, – canlı ya da cansız, – dilini bilirdi. Bir gün Mengü dağın ətəklərində iki qara nəsnənin söhbətinin şahidi olur. Onlar deyirlərmiş ki, bizə kömür deyərlər. Biz yanaraq isti verməyi bacarırıq. O qədər isti verə bilirik ki, hətta dəmiri belə əridirik. Debet onlardan birini əlinə alır və əlinin istisindən kömürlər nəşə ilə yanmağa başlayır. Debet beləcə odu kəşf edir, sonra onlardan dəmirin nə olduğunu soruşur. Bu zaman yerin altından dəmir səslənərək deyir ki, mən torpağın altında, daşların arasındayam. Məni isidib əritsən, istədiyin formaya sala bilərsən. Debet səs gələn yerdən böyük bir qaya parçasını qoparıb sındırır. Onun içindən filiz tökülür. Beləliklə, Debet dəmiri də kəşf edir. Ondan ən müxtəlif silah və məişət vasitələri düzəldir. Dəmirçi Debet bir gün fərq edir ki, dağlarda gəzən zaman atların dırnaqları qopur. O, dəmiri əridərək atlara nal düzəldir. Sonra isə divləri öldürmək üçün dəmir oxlar düzəldir.

Göründüyü kimi, Dəmirçi Debet böyük ixtiraçıdır. O, odu kəşf edir, dəmiri əridir, oxu kəşf edir, nalı düzəldir vəs. Beləliklə, onun kəşfləri sayəsində nartlar güclənirlər. Bir gün Debet görür ki, göydən gölün ortasına parlaq nur saçan cisim düşdü. Oraya gedir və görür ki, gölün ortasına düşən daşın istiliyindən su buxarlandı. Daşın içindən isə bir oğlan uşağı çıxdı. Bu zaman bir dişi qurd uşağı yemək üçün oraya getdi. Uşaq isə əli ilə dişi qurdun boğazından tutdu və onu əmməyə başladı. Nəhayət, Debet bu uşağı qurddan ayıraraq evə gətirir və adını Örüzmek qoyur. Göründüyü kimi qurdun türk totemi kimi qəbul edilməsinin ən müxtəlif variantları ilə bərabər belə bir fərqli variant da mövcuddur. Sonralar Örüzmek böyüyür və nartların düşməni olan Kızıl Puk adlı divi öldürür.



Günlərin bir günü nartların arasında belə bir xəbər yayılır ki, dağların arasında olan göllərin birindən hər gün iki at çıxır, sahildə otlayır, oynayır, sonra yenə də göldə sulara dalaraq yox olur. Heç kəs bu atları tuta bilmir. Nəhayət, atlardan birini tutmaq Dəmirçi Debetin oğlu Alavqana (Atəşli) qismət olur. Atların biri doru, biri isə boz olur. Alavqan doru atı tutub minir.At durmadan İdil (Volqa) çayına qədər sürətlə qaçır. Qaçarkən onun bir burnundan soyuq hava çıxaraq ətrafı dondurur, bir burnundan isə isti hava çıxaraq ətrafı çəmənzar edirmiş. Doru at İdil çayını balıq kimi üzərək keçir, sonra isə nartlar ölkəsinə qayıdır. Alavqan bu atın adını Yemuda qoyur. Ceyranlardan süd sağır, içinə qartal yumurtası qıraraq onu qarışdırır və Yemudaya içirir. Yemuda daha güclü və qüvvətli olur.

***Burada "Koroğlu" dastanı ilə uzlaşan paralellər var. İlxıçı Alı kişinin də dənizdən çıxan ayğırın madyanla əlaqəsindən Qır (Boz) və Doru (tünd qırmızı) rəngli iki qulun doğulur. Nart dastanında isə atlar birbaşa dəryadan çıxır, ancaq onların da rəngi qır və dorudur. Fərq isə ondadır ki, bu atların qanadlı olması ilə bağlı dastanda məlumat yoxdur. Sadəcə bu atlar quşlardan iti qaçır və kişnədiyi zaman mənzilə səsindən qabaq özü çatır! Yəni səs sürətindən iti uçan təyyarələr kimi. Nəhayət, Yemuda və Alovqanın, o cümlədən, digər nart igidlərinin səyi nəticəsində nartlar divlərə qalib gəlirlər. Göründüyü kimi, bu dastanın da əsas qəhrəmanlarından biri atlardır.***

## Atlar Ərəbistan yarımadası, Misir və Ön Asiyada necə yayıldılar

Bir az yuxarıda atların Anadolu və Yaxın Şərqdə yayılmaları ilə bağlı müəyyən məlumatlar verdik. İndi isə bu coğrafiyanı bir az daha genişləndirərək daha detallı danışmaq və Şərqin ilkin sivilizasiyalarından olan Babilistanda, Assuriyada, Urartuda, Midiyada və Mannada, o cümlədən, Misirdə atların hansı areallara nə vaxt və necə yayılmasından danışacağıq. Beləliklə Qeyd etmişdik ki, Mərkəzi Asiya kökənlitürk-hetlər eramızdan əvvəl 1800-cü illərdə harın döyüş atlarının və döyüş arabalarının üstündə Anadoluya, Yaxın Şərqə, Babilistana və Mesopotamiyaya daxil oldular. Bu, adlarını çəkdiyimiz coğrafiyaya atların ilk kütləvi gəlişi idi. Təqribən yüz il sonra hetlərin bir qolu olan hiksoslar (bəzi mənbələrdə hiksoslar hetlərin sadəcə müttəfiqləri kimi göstərilir. Ancaq fikrimizcə, elə hiksoslar da hetlərlə bərabər Asiyadan gəlmiş bir türk boyu idi. Çünki ondan əvvəl heç bir Şərq mənbəyində hiksosların adı çəkilmir) b.e.ə. 1700-cü illərdə hetlərdən ayrılaraq Misirə yürüş etdilər və bütün Nil vadisini öz hakimiyyətləri altına aldılar(b.e.ə. 1670 və 1570-ci illər). Beləliklə də misirlilər ilk dəfə atla tanış oldular. Hiksosların mənşəyi ilə bağlı araşdırmalarda göstərilir ki, onlar Mərkəzi, Qərbi Asiyadan gəlmişlər. Çox maraqlıdır ki, hiksoslar Nil deltasının şərqində özlərinə bir paytaxt şəhəri tikir və adını Avaris qoyurlar. Sonralar, yeni krallıq zamanında Ramzes bu şəhəri öz adı ilə adlandıraraq onu daha da inkişaf etdirir. "Avaris" sözünün kökü avardır -is, -ıs, -us isə yunan mənşəli şəkilçidir. Deməli, belə mülahizə irəli sürə bilərik ki, ya hiksoslar elə avar türkləri idi, ya da bu tayfa birləşməsində dominant etnik ünsür avarlar idi. Avarların isə Qərb hunları ilə qonşu olduqlarını, yaxud Qərb hunları ilə eyniləşdirildiklərini bilirik. Elə Misir mənbələri də onların Qərbi Asiya çöllərindən gəldiklərini bildirir. Misirlilər hiksosların dönəmindən sonra, yəni b.e.ə. 1570-ci illərdə Teben döyüşlərindən sonra hiksos (oxu:hun-avar) hegemonluğundan xilas olurlar. Ancaq onlar artıq atı və arabanı tanımışdılar. Yalnız bundan sonra misirlilər at arabaları sayəsində çöllükləri aşaraq Suriya və Fələstinə yürüş təşkil edə bilmişlər. Ancaqg onlar atı minə bilmirdilər. Uzun illər süvari ola bilmədilər. Süvarilik yalnız türklərə aid bir keyfiyyət idi. Misirlilər də, elə assuriyalılar kimi, atlardan araba vasitəsilə istifadə edirdilər. Bu barədə bir az sonrag

## Finikiyada və Assuriyada atlar

***Çox maraqlıdır ki, dövrünün ən inkişaf etmiş dövlətlərindən biri olan Finikiyaya da atlar hiksoslar (hun-avar) vasitəsilə Misirdən sonra ayaq açdılar. Finikiyalı tacirlər qısa müddətdə yaxşı at bilicisinə və tüccarına çevrildilər. Çox keçmədən onlar atı artıq Afina bazarlarında satmağa başlamışdılar...***

Bizim eradan əvvəl təqribən XVII əsrdə Yaxın Şərq, Mesopotamiya və Afrikadan yayılan atlar təqribən 1000-900 il sonra artıq bu coğrafiyada da döyüşlərin qədərini təyin edənlər idi. B.e.ə. IX əsrdə Assuriya güclü bir dövlət kimi meydana çıxmışdı. Ötən min il ərzində atlar yerli iqlimə alışmış, yerli relyefə və coğrafiyaya uyğun olaraq yeni keyfiyyətlər əldə etmişdilər. Bu mərhələdə döyüş arabaları da xeyli təkmilləşdirilmişdi. Əgər hetlərdə döyüşdə arabalara bir at qoşulur və bir döyüşçü tərəfindən idarə olunurdusa, b.e.ə. əvvəl IX əsrdə assurlar artıq arabaya iki at qoşur, onun təkərlərinə kəsici vasitələr bərkidir və araba iki döyüşçü vasitəsilə idarə olunurdu. Onlardan biri döyüşür, digəri isə həm arabanı idarə edir, həm də yoldaşının yaralanacağı təqdirdə onu əvəz edirdi.

***Beləliklə, Assuriyada atlı qoşun növü b.e.ə. VIII-VII əsrlərdə, xüsusilə dəAsurnasipal və III Salmansar dövründə o qədər inkişaf etdi ki, onların süvari ordusu turanlılardan sonra ikinci güclü ordu halına gəldi. Daha sonra II Sarqonun dövründə, əvvəllər hetlərdə olduğu kimi, assurlarda da at müqəddəsləşdirilməyə başlandı. Bu dövrdə at minmək xüsusi sosial status olaraq aristokratlara aid idi. Ancaq bütün nailiyyətlərə baxmayaraq, assurlar hələ də yəhəri və üzəngini tanımırdılar. Onlar yəhərin yerinə atın belinə keçə ataraq minirdilər. Nəhayət, Assur çarı Asurbanipal (b.e.ə. 668-627) zamanında turanlıların süvari paltarlarını mənimsəyə bildilər. O zamana qədər dona bənzər, ətəkli qiyafət geyinirdilər. Belə paltar isə at minmək üçün münasib deyildi. Minicinin oturacağı və ayaqları sürtülərək yara olurdu. Ancaq ondan ən azı 1000 il əvvəl skiflər at minmək üçün xüsusi geyim forması düşünmüşdülər. Bu, bizim indi şalvar kimi tanıdığımız xüsusi qiyafət idi. Ayaqlarına isə dəridən çəkmə tikirdilər. Beləliklə dərahat minicilik qiyafəti tamamlanırdı. Elə Şərqdə və Avropada qadın və kişi geyimləri arasında fərq də həmin vaxtdan yaranmağa başladı. Çünki qadınlar at minmirdilər. Ona görə də minici qiyafəti geyinməyə ehtiyac yox idi. Hələ bu gün də Şotlandiyada və bir sıra digər Avropa və Şərq ölkələrində kişilərin də ətəkli paltar geyinməsi ənənəsi onların süvari xalq, atlı xalq olmamalarının nişanəsidir.***

(davamı gələn sayımızda)

*Bizim eradan əvvəl təqribən XVII əsrdə Yaxın Şərq, Mesopotamiya və Afrikadan yayılan atlar təqribən 1000-900 il sonra artıq bu coğrafiyada da döyüşlərin qədərini təyin edənlər idi. B.e.ə. IX əsrdə Assuriya güclü bir dövlət kimi meydana çıxmışdı. Ötən min il ərzində atlar yerli iqlimə alışmış, yerli relyefə və coğrafiyaya uyğun olaraq yeni keyfiyyətlər əldə etmişdilər. Bu mərhələdə döyüş arabaları da xeyli təkmilləşdirilmişdi. Əgər hetlərdə döyüşdə arabalara bir at qoşulur və bir döyüşçü tərəfindən idarə olunurdusa, b.e.ə. əvvəl IX əsrdə assurlar artıq arabaya iki at qoşur, onun təkərlərinə kəsici vasitələr bərkidir və araba iki döyüşçü vasitəsilə idarə olunurdu. Onlardan biri döyüşür, digəri isə həm arabanı idarə edir, həm də yoldaşının yaralanacağı təqdirdə onu əvəz edirdi*